

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 248 (23.159)

*26 dekabr 2018-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


*Rəsmi xronika*




Dekabrın 25-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verib.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Polis Akademiyasının meydanında ucaldılan abidəsi önünə gül dəstəsi qoyub.

Dövlətimizin başçısı yeni tədris binasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədris binasında yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verib.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 25 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illiyi münasibətilə və sosial müdafiə sahəsinin inkişafında səmərəli fəaliyyət göstərdiklərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları da vardır.

**Xəlilova Minayə İbrahim qızı**
**Məmmədov Məmməd Kərəm oğlu**
**Nəcəfov Bayram Həsən oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 25 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**Şirəliyev Mübariz Məmmədəli oğlu**

1-ci dərəcəli "Əmək" ordeni ilə,

**Orucov Valeh Qəşəm oğlu**

2-ci dərəcəli "Əmək" ordeni ilə,

**Abdullayev Tahar Vəzir oğlu**
**Quliyev Elxan Piri oğlu**

3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişlər.

## Ulu öndər həmrəylik və birlik ideyasının müəllifidir



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin "Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının həmrəylik və birlik ideyasının müəllifidir" mövzusunda məruzəsi dinlənilib.

Qeyd olunub ki, ümummilli liderimiz hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarının həmrəylik və birlik ideyasını dövlət siyasəti səviyyəsinə qaldırıb.

Vurğulanıb ki, məhz bu böyük siyasətçinin uzaqgörənliyi və xalqla sıx birliyi sayəsində 1993-cü ildən başlayaraq dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diasporunun formalaşdırılmasına nail olunub, 9-10 noyabr 2001-ci il tarixdə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Ulu öndər xaricdə yaşayan azərbaycanlılara tövsiyə edərək deyirdi ki, onlar sıx birləşməli, Azərbaycançılıq ideologiyasına öz əməli fəaliyyətləri ilə töhfələr verməlidirlər.

Qeyd olunub ki, ümummilli liderin 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında imzaladığı Fərman irəliyə doğru atılmış qətiyyətli və uğurlu addımlardan biri oldu. "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul olunması isə bu sahədə prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən etdi.

Bildirilib ki, dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələləri bu gün də diqqət mərkəzində saxlanılır. Ölkə rəhbərinin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının 2006-2016-cı illərdə keçirilən qurultayları diasporların birləşməsi və fəaliyyətlərinin daha da gücləndirilməsi işinə təkan verib.

Məruzə ətrafında çıxışlar olub.

Sonda partiya sıralarına yeni qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**



Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında keçirilən konfransı giriş sözü ilə açan təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov dünya azərbaycanlılarının həmrəyliyi, təşkilatlanması prosesində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edib. Təşkilat sədri deyib ki, 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar yenicə müstəqilliyini elan etmiş Azərbaycanın çağdaş tarixində fundamental sənədlərdən biridir. Qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunub.

İsa Məmmədov bildirib ki, ulu öndər öz xalqının, ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yaxşılaşdırılması ilə bərabər, onun ümummədəni tərəqqisinin qayğısına qalıb, xalqımızın dünyada layiqli yer tutmasına, obyektiv səbəblərdən bütün dünyaya səpələnmiş soydaşlarımızın ümummilli məqsədlər ətrafında birləşməsinə nail olub. Ölkənin qüdrətinin yalnız siyasi və iqtisadi resurslarla yox, xaricdə formalaşdırdığı diaspor və lobbiçilik fəaliyyəti ilə də ölçüldüyünü qeyd edən dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktuallığını qoruyur. Bu siyasət Heydər Əliyev ideyalarının layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Mövzu ətrafında çıxışlarda bildirilib ki, 1991-ci il dekabrın 16-da Naxçıvanda qəbul edilən tarixi qərar öz əhəmiyyətini bu gün də saxlayır. Artıq bu sahədə dövlət siyasəti özünün əsaslı nəticələrini verib, müxtəlif xarici ölkələrdə yaşayan soydaşlarımız güclü diaspora və müstəqil Azərbaycanın həqiqət carçılarına çevriliblər.

Sonda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş olunub.

**Muxtar RZAZADƏ**

## Muxtar respublikada bitkiçilik məhsullarının yığımı başa çatmışdır

*Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi yeri olan kənd təsərrüfatının inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, məhsul bolluğu yaradılmışdır.*

Aqrar sektorun əsas sahələrindən biri olan bitkiçilikdə məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşa olunması və "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu muxtar respublikada toxum istehsalına, tədarükünə və istifadəsinə geniş imkanlar açmışdır. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Bu sahədə nəzərdə tutulan işlərin keyfiyyətlə yerinə yetirilməsi, sahibkarların lazımi texnika və avadanlıqlarla vaxtında təmin edilməsi məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 321 ədədi 2018-ci ilin yanvar-noyabr aylarında olmaqla, ümumilikdə, 2375 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. Bu dövrdə 237 ədəd texnika və avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 44 ədədi nağd yolu ilə satılmışdır.

2018-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 935 hektar sahədə əkin aparılmışdır ki, bu da bir il öncəki göstəricidən 404 hektar çoxdur. Ümumi əkin sahəsinin 88 faizini bitkiçilik məhsulları əkini, 22 faizini isə yem bitkiləri əkini təşkil etmişdir. Bitkiçiliyin inkişafı istiqamətində məhsul istehsalçılarına cari ilin yanvar-noyabr aylarında 445 min manatdan çox kredit verilmişdir.

2018-ci ilin məhsulu üçün 34 min 623 hektar sahədə dənli və dənli-paxlalılar əkini aparılmış və 104 min 413 ton məhsul yığılmışdır. Dənli və dənli-paxlalılar əkininin 32 min 483 hektarını taxıl sahələri təşkil etmişdir. Taxıl əkini sahələrinin 30 min 925 hektarı payızlıq, 1558 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 22 min 632 hektarında buğda, 9 min 851 hektarında arpa əkilmişdir. Bir il öncəyə nisbətən taxıl əkini sahəsi 851 hektar artmışdır. Cari ildə taxıl zəmilərindən 97 min 689 ton məhsul toplanmışdır.

Taxılla yanaşı, qarğıdalı əkini üzrə də ardıcıl işlər aparılmış, məhsulun vaxtında yığılması üçün qabaqlayıcı tədbirlər həyata keçirilmişdir. 2018-ci ildə muxtar respublikada 1174 hektar sahədə qarğıdalı əkilmiş, 10 min 524 ton məhsul yığılmışdır. 2017-ci illə müqayisədə məhsuldarlıq 18,8 faiz artmışdır.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2018-ci ildə 3 min 215 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2017-ci ildə əkilmiş sahədən 32 hektar çoxdur. Kartof əkilmiş sahələrdən, ümumilikdə, 49 min 574 ton kartof yığılmışdır. Bu da bir il önceki göstəricini 1,2 faiz üstələyir.

Cari ildə 2 min 776 hektar bostan bitkiləri əkini sahəsindən 38 min 714 ton bostan məhsulları yığılmışdır ki, bu da 2017-ci ildəki göstəricidən çoxdur.

Muxtar respublikada tütünçülüyün inkişafı istiqamətində Kəngərli rayonunda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Tütün Yetişdirmə Təsərrüfatının yaradılması bu sahəyə marağı daha da artırmışdır. 2018-ci ildə muxtar respublikada tütün əkini bir il öncəyə nisbətən 32,5 hektar artaraq 41,5 hektara çatdırılmışdır. Əkin sahələrindən 51,5 ton qurudulmuş tütün tədarük olunmuşdur ki, bu da 2017-ci illə müqayisədə 40,4 ton çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaratmışdır.

Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, cari ildə meyvə bağlarından 53 min 971 ton meyvə, tərəvəz əkini sahələrindən 85 min 642 ton tərəvəz məhsulları yığılmışdır. 2017-ci illə müqayisədə meyvə istehsalı 1,7 faiz, tərəvəz istehsalı isə 1,1 faiz artmışdır.

Muxtar respublikada üzümçülüyün inkişafı istiqamətində yeni üzüm bağlarının salınması işləri geniş vüsət almışdır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq cari ildə üzüm istehsalı əvvəlki ilə nisbətən 2 faiz artaraq 16 min 223 ton olmuşdur.

2018-ci ilin yanvar-noyabr aylarında 411 milyon 443 min 800 manatlıq kənd təsərrüfatı məhsulu, o cümlədən 272 milyon 778 min manatlıq bitkiçilik məhsulları istehsalı qeydə alınmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı məhsulunun ümumi həcmi 4,2 faiz, bitkiçilik məhsullarının ümumi həcmi isə 5,1 faiz artmışdır.

Muxtar respublikada kənd təsərrüfatı sahəsinin inkişafı, əhalinin keyfiyyətli yerli ərzaq məhsulları ilə etibarlı təminatı istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*(Əvvəli qəzetin 29 noyabr 2018-ci il tarixli nömrəsində)*

*Hazırda yaşadığımız dünya, xüsusən böyük dövlətlər arasındakı iqtisadi və siyasi ziddiyyətlər fonunda təlatümlü bir dövrdən keçsə də, bütövlükdə, İslam əxlaqının hakim olduğu milyard yarımlıq müsəlman aləmi İslam mədəniyyəti normaları altında yaşayıb inkişaf etməkdədir. Müqəddəs kitabımızdan gələn inanc və əxlaq normalarına əməl olunması, dinindən və irqindən asılı olmayaraq, hər kəsə dost, insani davranış göstərilməsi kimi keyfiyyətlər müsəlman olmayan digər xalqlarda da artıq qəbul edilməkdə, İslam mədəniyyətinin səmavi ağırlığını ortaya qoymaqdadır. Bu da təsadüfi deyil, çünki müqəddəs kitabımız "Qurani-Kərim"in "Loğman" surəsinin 34-cü ayəsində deyildiyi kimi: "Hər şeyi bilən və xəbərdar olan Allah" qarşısında ən gözəl xidmət də öz əməli və davranışı ilə başqalarını incitmədən insanların bir-biri ilə dost və qardaş kimi yaşamasıdır.*

**_Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı_**

# Bir qalanın sirri



Bu mənada, daim yaxşılıq etmək, başqalarına qarşı dürüst və mehriban olmaq insana xas olan ən ali keyfiyyət kimi İslam mədəniyyətinin əsas çağırışlarındandır. Tarixən yaxşını pisdən, mərdi namərddən çox gözəl ayıran, insanları yalnız xeyirxahlıq etməklə mənəvi saflığa qovuşmağa çalışan azərbaycanlılar hələ İslamdan əvvəlki dövrlərdə də bu keyfiyyətləri ilə seçilmişlər. VII əsrdə İslam dinini qəbul edən bu torpağın sakinləri daha sonrakı dövrlərdə soykökünə, dilinə, dininə və mədəniyyətinə bağlı qalmaqla keçmişlə bu gün arasında mövcud olan mirasa sahibliyi, dövlətinə sədaqəti, ailəsinə məhəbbəti, köməyə ehtiyacı olanlara şəfqəti ilə ad-san qazanıblar. Bu mənada, İslam Mədəniyyəti Paytaxtı kimi mühüm missiyanı uğurla başa vuran Naxçıvanın sirli bir torpaq kimi dünyada getdikcə daha çox tanınması və sevilməsi təsadüfi deyildir. Nuh tufanı dövründən bu günədək özünün paklığını və təmizliyini qoruyub saxlamış Naxçıvanda yaşayan insanlar tarixin bütün ağır sınaqlarında inanclarından dönməmişlər. Şübhəsiz, insanın imanı artdıqca onun Allaha məhəbbəti də dərinləşir, sonsuzluğa doğru yüksəlir. "Əl-Bəqərə" surəsinin 165-ci ayəsində deyildiyi kimi: *"İman gətirənlər Allahı daha çox sevərlər"*.

Naxçıvanın sirri onun möcüzələrindədir. Hansısa uzaq yerlərdən Naxçıvana gələn insanların buradakı havadan udduqca nəfəsinin yüngülləşməsi müasir elmi fikirlərə görə quru və təmiz hava ilə izah olunsa da, bu, əslində, Allahın sirridir. Bu sirrə agah olmaq üçün təkcə bir həftə, ya da bir ay Naxçıvanda qonaq qalmaq, yaxud bu torpağı, sadəcə, gəzib-dolaşmaq bəs etməz. Naxçıvanda ilin bütün fəsillərində, hətta qışın oğlan çağında belə, hər gün özünü göstərən parlaq Günəşi görmək, ən quraq keçən illərdə belə, qurumayan saf bulaqlardan su içmək, min bir dərdin dərmanı olan şəfalı bitkilərdən məlhəm tutmaq, ləzzətli bar-bərəkətindən dadmaq gərəkdir. Min illər boyu təbiətin bu səxavətindən şükürlər içində bəhrələnmiş naxçıvanlıların qanındadır ki, onlar buraya qonaq kimi ayaq basmış hər kəsi incitmədən öz məmləkətinə sağ-salamat yola salmağı ana südü, ata nəsihəti kimi mənimsəmişlər. Çünki qonaq Allah qonağıdır və İslam əxlaqına görə, salam verərək dinc məqsədlə qapını döyən hər bir müsafirə qarşı eyni davranış göstərilməlidir. Başqa sözlə, "Nisa" surəsinin 86-cı ayəsində buyurulduğu kimi: *"Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır"*.

Bu gün Naxçıvana ayaq basan, xüsusən səyahət edib öz sağlamlığına qovuşan hər bir müsafirin buradakı xeyir-bərəkəti, hörmət-izzəti görüb ruhən saflaşması onun üçün bu sirli dünyanı kəşf etməsi qədər, ilk baxışda əlçatmaz görünsə də, xoşbəxtlikdən, bu, bir reallıqdır. Çünki Naxçıvan elə bir diyardır ki, burada böyük-kiçik, qadın-kişi, valideyn-övlad münasibətləri dünyanın istənilən yerindən fərqli olaraq min illər boyu heç bir assimilyasiyaya uğramadan öz ülviliyini qoruyub saxlaya bilib. Yəqin bu səbəbdəndir ki, belə dərin əxlaqi dəyərlər içində dünyaya göz açan hər bir naxçıvanlı həyatının sonrakı dövrlərində özünü tanımaqda, ictimai hüquq və vəzifələrini bilməkdə heç bir çətinlik çəkmədən layiqli cəmiyyət üzvü olur, ailəsi, dostları tərəfindən sevilir, xalqı, dövləti tərəfindən yüksək qiymətlər alır.

Naxçıvanlılar həm də nikbin və mübarizdirlər. Hər əməlində, hər kəlməsində Uca Allaha təvəkkül edib, sabaha qəlb rahatlığı ilə çıxmaq istəyi burada yaşayan insanların həyat tərzində həmişə üstün yer tutub. Ədəb və təvazökarlığı həmişə üstün tutan, lovğalıq və təkəbbürə heç bir zaman yer verməyən naxçıvanlılar bütün ömrü boyu: "Ruzini verən Allahdır", – deyərək həmişə irəliyə doğru baxıb, zəhmətlə çörəklərini qazanmağa çalışıblar. Tarixən haradasa yaşamış tənbəl və ələbaxımların "keşkə olsaydı" xəyallarına qarşı sadə naxçıvanlılar həmişə tər tökərək daş çapıb, su gətirib, bənd tikib, torpaq əkib-becərib, bağ-bağça salıb, mal-mülk sahibi olublar. İslam mədəniyyətinin çiçəkləndiyi IX-XII əsrlərdən bu günə kimi düşüncəsində möhkəmlənmiş bu əzmlə yolunu davam etdirən müasir Naxçıvanın qurucusu da bu gün reallaşdırılması çox çətin görünən işlərin öhdəsindən asanlıqla gələ bilir. El birliyi ilə qazanılan bu uğurlar isə ona görə başa gəlir ki, onların hamısının mayası yaxşılıq düşüncəsi əsasında yoğrulub. Heç bir yaxşılıq isə hər şeyi bilən Allah dərgahında mükafatsız qalmır. "Əl-İmran" surəsinin 115-ci ayəsində yazıldığı kimi: *"Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!"*

...Yaşadığımız dünya sirlərlə doludur. Bir yandan onun sirlərini öyrəndikcə, o biri yandan cəmiyyət də bu və ya digər şəkildə müasirləşmə yarışına girərək elmi nailiyyətlərin, sərmayənin, texnologiyanın və sosial şəbəkələrin gücündən fəal şəkildə istifadə edir. Bu zaman qloballaşmanın da təkan verdiyi bir güclə başqaları üzərində istismar aləti kimi tətbiq olunan "müasir mədəniyyət" isə tamamən, İslam mədəniyyətindən uzaq olmaqla, əslində, sonu görünməyən bir xaosa doğru yol almaqdadır. Halbuki zaman ərzində elmin və texnologiyanın inkişafı sayəsində əldə olunan bütün nailiyyətlər yalnız əsl mədəniyyətin inkişafına töhfə verən bir dəstəkçi olmalı, başqalarına əzib keçməməlidir. Başqa sözlə, təkcə iqtisadi gücü ilə deyil, həm də mənəvi cəhətdən özünəinamı olduğu müddətdə cəmiyyət özü üçün dəyərli olan bütün mədəni qazanclarını qoruyub saxlayacaq və daha sonrakı dövrlərdə bu mədəniyyəti inkişaf etdirə biləcək.

*Bu mənada, yola salmaqda olduğumuz 2018-ci ildə paytaxtı Naxçıvan şəhəri olan İslam mədəniyyəti bir gün gələcək ki, bütün bəşəriyyətin xilaskarı kimi Yer üzünə yayılıb, insanları bəd əməllərdən uzaq durmağa, yaxşılıq edib dostlar qazanmağa, bütün yaranmışları Uca Allah sevgisi ilə sevməyə səsləyəcək. Çünki bu, İslam əxlaqı və düşüncəsinin məhsulu olan bir mədəniyyətdir.*

**Əli CABBAROV**

---

**_Tarixi abidələrimiz milli sərvətimizdir_**

# Azərbaycan memarlığının daş sənəti incisi – Gülüstan türbəsi

***Qədim diyarımız zəngin abidələr, alınmaz qalalar məskənidir. Naxçıvan Möminə xatın, Yusif Küseyir oğlu, Qarabağlar Türbə Kompleksi, Darkənd türbələri, Əlincəçay xanəgahı və onlarla nadir sənət inciləri, tarix və mədəniyyət abidələri ilə tanınan bir diyardır. Qədim və orta əsrlər dövründə mövcud olan bir çox maddi-mədəniyyət nümunələri, o cümlədən memarlıq abidələri təbii qüvvələrin təsirindən güclü aşınmalara məruz qalıb, dağıdılıb, bir qismi isə zəmanəmizədək gəlib çatıb. Muxtar respublikamızda maddi-mədəniyyət nümunələrinə göstərilən diqqət və qayğı nəticəsində tarixi abidələrdən 60-dan çoxu bərpa və təmir olunaraq xalqa qaytarılıb.***

Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən, XII əsr Azərbaycan memarlığının ən dəyərli abidələrindən biri olan, böyük Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarlarından sayılan Gülüstan türbəsi Naxçıvan torpağında tarixə şahidlik edən digər memarlıq nümunələri içərisində öz yerini qoruyub saxlayır. Orta əsr memarlığının möhtəşəm nümunəsi olan türbə həndəsi naxışlarla bəzədilib. Ulu tariximizin əbədiləşmiş heykəlini xatırladan, 800 ildən çox yaşı olan bu türbənin görkəmi diqqəti ilk baxışdan özünə cəlb edir. Bu abidə Azərbaycan və Anadolu səlcuq türbələrinin soy birliyinin başlıca göstəricisi hesab edilir. Bununla belə, qülləvarı formada tikilən türbə memarlıq üslubu, ornamentlərin müxtəlifliyi, naxışlarının rəmzi məna daşıması ilə ozamankı daş türbələrin hamısından seçilir.




Tarixi mənbələrə əsaslanaraq deyə bilərik ki, 12 üzlü, gövdəsi qırmızı günbəzdən, küncləri yonulmuş möhkəm sərt daşlardan ibarət olan türbənin sərdabəsi yerüstü hissədə yerləşir. Orijinal üslubu ilə diqqəti cəlb edən abidənin səthi oyma həndəsi ornamentlərlə bəzədilib, dekorativ tağlarla çərçivələnib. Türbənin diametri 4,6, divarlarının qalınlığı 1,25, hündürlüyü 9,7, günbəzi isə 6,5 metrdir. Səlcuq dövrü abidələri üçün də səciyyəvi olan bir çox xüsusiyyətləri özündə birləşdirən Gülüstan türbəsi Azərbaycanın orta əsr zəngin daş memarlığı təcrübəsinin parlaq nümunəsidir. Türbənin tikilmə tarixi, sifarişçisi, kimin şərəfinə tikilməsi və memarı bilinməsə də, mütəxəssislər türbəni üslub xüsusiyyətlərinə görə dəyərləndiriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə nəşr olunan "Gülüstan türbəsi" kitabında türbədə dəfn olunanın kimliyinə yenə də mənbələrə istinad edilməklə aydınlıq gətirilib. Türk səyyahı, tarixçisi və etnoqrafı Övliya Çələbinin məlumatından aydın olur ki, sərdabədə dəfn olunan şəxsin qəbirüstü abidəsi üzərində "Hüseyn Baykaranın oğlu, arzusuna çatmayan Bahadır Şəfad" sözləri yazılıb. Bu faktdan istifadə etməklə türbədə dəfn olunanın kimliyi üzə çıxıb. Hüseyn Baykara Əmir Teymurun nəslindən olan Xorasan hökmdarı olub. XV əsrin 70-ci illərində Heratda hakimiyyətə gəlib. Onun oğlu Bahadır Şəfad Naxçıvanda vəfat edib və burada əvvəlcədən mövcud olan simvolik türbənin sərdabəsində dəfn olunub.

Türbə XVI yüzilliyə aid "Çaldıran səfəri ruznaməsi"ndə, Övliya Çələbinin "Səyahətnamə"sində "Kəsik günbəz", 1815-ci ildə Culfada olmuş Mirzə Saleh Şirazinin "Səfərnamə"sində isə "Tənha bürc" kimi xatırlanır.

Türbənin xaricdən görünən quruluşu onun içərisində də əks olunub. Kürsülük və qülləni içəridə günbəz bir-birindən ayırıb. Xarici görünüşündən fərqli olaraq içəridə alt qat (sərdabə) və üst qat (qüllə) dairəvi biçimlidir. Bütünlüklə qırmızı tufdan ucaldılan türbənin yalnız qatlararası iç günbəzi kərpicdən yığılıb. Qüllənin üzlərinin hər biri qabarıq tinlərin haçalanması yolu ilə tağlarla tamamlanır. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi, burada da taxçaların içi incə həndəsi naxışlarla örtülüb.

Gülüstan türbəsinin naxışları Naxçıvan şəhərində 1186-cı ildə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Möminə xatın türbəsinin ornamentləri ilə müqayisə edilir. Lakin tədqiqatçılar belə hesab edir ki, Gülüstan türbəsinin daşdan yonulmuş naxışları Möminə xatın türbəsinin kərpicdən yığılmış naxışlarına nisbətən daha incə və zərifdir.

Ötən müddət ərzində təbii qüvvələrin təsirindən Möminə xatın türbəsində olduğu kimi, bu türbənin də üst örtüyü aşınmaya məruz qalıb və dağılaraq sıradan çıxıb. Sovet hakimiyyəti illərində Araz çayı boyunca çəkilən sərhəd xəttinin arxasında qalan türbəyə bigənə yanaşılıb, bərpa edilməyib, əhalinin onun yanına getməsinə icazə verilməyib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2015-ci il 7 oktyabr tarixdə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncam imzalayıb. Muxtar respublikamızda tarix-mədəniyyət abidələrinə dövlət qayğısının nəticəsidir ki, on ikinci əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən biri, orta əsr Azərbaycan mədəniyyətini müasir dövrümüzədək yaşadan bu möhtəşəm abidə elmi və tarixi əsaslarla bərpa edilib, türbəyə ikinci həyat verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: ***"Gələcək keçmişin üzərində qurulmalıdır. Keçmiş isə tarixi abidələrdə yaşayır. Naxçıvanda vaxtilə əcdadlarımız tərəfindən möhtəşəm abidələr yaradılmışdır. Bu abidələr xalqımızın daşlarda yaşayan tarixi və pasportudur. Bu mənada, hər bir abidənin tədqiqi və bərpası tarixin bir dövrünün və xalqımızın qədim həyat tərzinin öyrənilməsi, üzə çıxarılması deməkdir".***

*Abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq Araz çayının sol sahilində "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Türbə "Naxçıvan məqbərələri" tərkibində 30 sentyabr 1998-ci ildən UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilib. Dünya əhəmiyyətli abidələr sırasında öz yerini qoruyub saxlayan türbə xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından da, əvəzsiz rol oynayır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## AMEA Naxçıvan Bölməsinin 2018-ci ilə aid elmi və elmi-təşkilati hesabat yığıncağı keçirilib

*Tədbirdən əvvəl 2018-ci ildə elmin müxtəlif istiqamətləri üzrə nailiyyətlərin toplandığı monoqrafiya, kitab, müxtəlif jurnallar, alınan patent və ixtiralar, tətbiqyönümlü müxtəlif materialların nümayiş etdirildiyi sərgiyə baxış olub.*

Hesabat yığıncağını bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, 2018-ci ildə AMEA Naxçıvan Bölməsi fəaliyyəti çərçivəsində bu və ya digər məsələlərlə bağlı Azərbaycan Respublikası Prezidentinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin verdiyi sərəncam, qərar, tapşırıq və tövsiyələri layiqincə yerinə yetirməyə çalışıb.

Qeyd olunub ki, 2018-ci ildə AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının 23 monoqrafiyası, 15 kitabı, 4 kitabçası, 3 metodik vəsaiti, 555 elmi məqaləsi, 213 konfrans materialı, 7 tezisi olmaqla, 820 elmi əsəri nəşr edilib. Əsərlərdən 2 monoqrafiya, 87 elmi məqalə, 75 konfrans materialı və 3 tezis olmaqla, 167-si xaricdə çapdan çıxıb. Elmi məqalələrdən 48-i impakt faktorlu (11-i Tomson Reuters) jurnallarda çap edilib. Bu da 2017-ci ilin göstəricisi ilə müqayisədə 51 əsər çoxdur. Məqalələrin 99-u xaricdə olmaqla, 498-i beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda çapdan çıxıb ki, bu da ötən illə müqayisədə 25 əsər çoxdur.



Hesabat dövründə bölmədə “Xəbərlər” jurnalının, eləcə də “Axtarışlar” jurnalının hər birinin dörd nömrəsi çapdan çıxıb. Bu nömrələrdə bölmə əməkdaşlarının 228 məqaləsi işıq üzü görüb. Bölmənin Rəyasət Heyətinin iclaslarında 18 kitab və monoqrafiya müzakirə olunaraq nəşrə tövsiyə edilib. Əməkdaşların 178 qəzet məqaləsi nəşr olunub. Bununla yanaşı, Təbii Ehtiyatlar İnstitutunun əməkdaşları Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə 4 patent təqdim ediblər.

Kadr hazırlığı sahəsində görülən işlərə toxunan akademik bildirib ki, 2018-ci ildə bölmədə ştat cədvəli üzrə 256 əməkdaş çalışıb. Onlardan 19 nəfəri hesabat dövründə işə götürülüb. Bundan əlavə, 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə bölmə əməkdaşlarından 1 nəfərə elmlər doktoru, 1 nəfərə fəlsəfə doktoru elmi dərəcəsi, 1 nəfərə isə professor elmi adı verilib. Bir nəfərin elmlər doktoru, bir nəfərin fəlsəfə doktoru dissertasiya işinin müdafiəsi keçirilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev işdə yol verilmiş nöqsanlara da toxunub, onların aradan qaldırılması üçün tapşırıqlar verib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, elmi-təşkilati və humanitar sahələrdə fərqlənən iki əməkdaşa “İlin alimi” diplomu təqdim edilib.

**Xəbərlər şöbəsi**

## İnteraktiv dərs muxtar respublikanın 220-yə yaxın ümumtəhsil müəssisəsində izlənilib



*Dekabrın 25-də Naxçıvan Muxtar Respublikası Təhsil, Rabitə və Yeni Texnologiyalar, Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil müəssisələri ilə Dövlət Bayrağı Muzeyi arasında interaktiv dərs aparılıb.*

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsinin 20 illiyinə həsr olunan dərsdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Elman Cəfərli çıxış edərək əlamətdar hadisə ilə bağlı iştirakçılara ətraflı məlumat verib.

Bildirilib ki, Naxçıvanın muxtariyyətinin əsasları 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulub. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək ərazi hüdudları dəqiqləşdirilib. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilib.

Qeyd edilib ki, 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Azərbaycan Konstitusiyası əsasında hazırlanmış yeni Konstitusiyası muxtar respublikanın Ali Məclisində qəbul edilib və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunub. Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq, Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq kimi niyyətlər bəyan edilib.



*Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkilini, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirib. Həmin Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə Ali vəzifəli şəxs institutu təsis edilib. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə, ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilib, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaradıb.

Qeyd edək ki, interaktiv dərs muxtar respublikanın 220-yə yaxın ümumtəhsil müəssisəsində izlənilib.

**Nail ƏSGƏROV**

Turizm

## Naxçıvanda idman turizminin inkişafı üçün geniş imkanlar var

*Turizm hazırda dünya iqtisadiyyatında mühüm yerlərdən birini tutur. XX əsrin sonlarından başlayaraq inkişaf etmiş ölkələrin turizm bazarında struktur dəyişikliklərinin baş verməsi onun növlərinin artmasına da imkan verib. Məhz idman turizmi anlayışı da bu dəyişikliklərin bir nəticəsi kimi ortaya çıxıb. Söhbət burada idmanın turizmlə əlaqələndirilməsindən gedir. Bəs hazırda bu əlaqələndirməyə nə qədər ehtiyac var?*



Son illərin təcrübəsi göstərir ki, turizm daim yenilikləri özünə cəlb edən sahədir. Bu sahənin inkişafı o zaman təmin olunur ki, kütləvi maraqları cəlb edə bilsin. Son dövrlərdə dünya turizm bazarının idarəçiləri o qənaətdədirlər ki, zaman keçdikcə insanlar aktiv istirahətə üstünlük verirlər. Bu isə, nəticədə, idman turizminin ayrı-ayrı növlərinin inkişaf etdirilməsini zəruri edir. Çox zaman “ekstremal turizm” adlandırılan bu sahə özündə müəyyən riskləri daşısa da, nəticə etibarilə, çoxları üçün əsrarəngiz bir istirahətdir. Buna görədir ki, hazırda dünya turizm bazarının 10 faizi ekstremal turizmin payına düşür. Belə bir mövzuya müraciət etməyimizin səbəbi də Naxçıvan Muxtar Respublikasında bu turizm sahəsinin böyük potensiala malik olmasıdır.

Hamımıza məlumdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların cənuba doğru uzanan orta və alçaq dağlıq yaradan qolları tutur. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsiləsidir. Bu silsilənin ən hündür zirvəsi olan Qapıcıq dağı isə (3906 metr) Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisindəki ən yüksək zirvəsidir. Bundan əlavə, hündürlüyü 3000 metrdən çox olan Yağlıdərə, Qazangöl, Sarıdərə, Dəvəboynu dağları, dəniz səviyyəsindən yüksəkliyi 2000 metrdən çox olan onlarla aşırımlar, eləcə də alçaq və orta yüksəklikli çoxsaylı dağ və təpələr Naxçıvanın əsrarəngiz relyefini formalaşdırır. Bu coğrafi potensial ekstremal turizmin inkişafında əhəmiyyətli rol oynayır.

Qeyd edək ki, ekstremal turizm alpinizm, speleoturizm (mağara turizmi), qayayadırmanma, veloturizm, ultramarafon, piyada turizmi, dağ xizəkçiliyi və sairi özündə birləşdirir. Təsadüfi deyil ki, Şahbuz rayonunun Ağbulaq kəndində yeni dağ-xizək turizminin yaradılması muxtar respublikada idman turizminin inkişafında atılan ilk uğurlu addımlardandır. Cari ilin iyul ayından burada tikintisinə başlanılmış xizək mərkəzində artıq işlərin 80 faizi başa çatdırılıb. Ərazinin relyefi, qış fəslində qarın 4-5 ay yerdə qalması xizək turizmi üçün burada geniş imkanlar yaradır.

Alpinizmin inkişafı üçün də muxtar respublikada potensial baza var.





Səyahətin idmana yaxın olan bu mürəkkəb növünün inkişaf etdirilməsi üçün yüksək, orta yüksək və alçaq dağlıq ərazilərin coğrafi imkanları, eyni zamanda qayayadırmanma üçün ərazi obyektlərinin müəyyənləşdirilməsi bu işə öz töhfəsini verə bilər. Doğrudur, turizmin bu növü alpinist və dağ turist düşərgələrində təlim keçmiş fiziki, nəzəri və praktik cəhətdən hazır olan idmançılar üçün məqbul sayılsa da, dünya turizmində buna böyük maraq var. Təcrübəli və səriştəli təlimatçıların rəhbərliyi altında həyata keçirilən belə tədbirlər üzrə artıq püxtələşmiş ölkələr mövcuddur. Və yaxud speleoturizmi götürək.

Mağara turizmi mənasını verən bu turizmin inkişafı üçün Naxçıvan ən unikal məkanlardandır. Çünki Cənubi Qafqaz regionunda təbii mağaraların ən çox yayıldığı ərazi Naxçıvan ərazisidir. Qeyd edək ki, bu turizm növünün məqsədi mağaraların kəşfi və tədqiqi sayıldığından bu sahəyə idmançılarla yanaşı, tarixçilər də böyük maraq göstərirlər.

İdman turizmində diqqətçəkən mühüm sahələrdən biri də veloturizmdir. Veloturizm az fiziki qüvvə sərf etməklə nisbətən yaxın məsafələrin təbiəti, tarixi abidələri ilə tanış olmağa imkan verən turizm növüdür. Atmosferi çirkləndirməyən, insan səhhətini möhkəmləndirən velosipedin nəqliyyat vasitəsi kimi universallığı ondan hər yerdə istifadə etməyə imkan verir. Əlavə olaraq orta dağlıq və dağətəyi regionlarda dağ velosipedi yarışlarının təşkili də müasir dövrdə ən populyar idman yarışlarındandır.

Ümumiyyətlə, idman turizminin müxtəlif növlərinin inkişafı üçün muxtar respublikamızda hərtərəfli şərait mövcuddur. Uzağa getməyək, elə Türkiyə Respublikasında son dövrlərdə turizmin hərtərəfli inkişafı idman turizminin də dirçəlməsinə imkan verib. Bu ölkənin Kapadokya bölgəsi hər il dünyanın müxtəlif ölkələrindən bura gələn turistlərlə dolu olur. Beynəlxalq səviyyəli ultramarafonlar, triatlon və dağ velosipedçiləri üçün təşkil olunan yarışlar artıq bu bölgəni idman turizmi üçün də ildən-ilə daha cəlbedici edir. Düşünürük ki, muxtar respublikamızın təbii şəraiti bu turizm sahəsinin inkişafı üçün daha çox və fərqli imkanlara malikdir.

***P.S.** 2016-cı ildə Honqkonqda keçirilən ümumdünya ultramarafon (100 kilometr) yarışının litvalı qalibi Gedminas Griniusdan soruşmuşdular ki, yaşadığınız Vilnüs şəhəri tamamilə düzənlikdir, bəs dağlıq ərazilərdə keçirilən bu tip ultramarafonlarda necə qalib ola bilirsiniz? Cavab vermişdi ki, bəli, yaşadığım yerlərdə bəzi kiçik təpələr istisna olmaqla heç bir dağ yoxdur. Buna görə də həmin təpələrə dəfələrlə qalxıb enməklə yarışlara hazırlaşıram.*

*Demək ki, dağlara sahib olmaq Tanrının bizə bəxş etdiyi zənginlikdir.*

**Səbuhi HƏSƏNOV**

# Gənclər Paytaxtı ili gənclərin yaddaşında

*Ulu babalarımızdan miras qalan, əsrlərboyu formalaşan inanca görə, yeni ili necə qarşılasan, ilboyu eyni şəkildə davam edəcəksən. 2018-ci ili də hər bir naxçıvanlı yüksək əhval-ruhiyyə ilə qarşıladı və artıq son günlərini yaşadığımız bu il qədim diyarımızın sakinlərinin yaddaşına unudulmaz xatirələrlə dolu xoş anlarla həkk edilir. İlin hər gününə yeni bir əlamətdar hadisə ilə başladıq. Sabahları üfüqdən boylanan Günəş rəvan yolumuzu nura qərq etdi. Qazanılan uğurlarda, atılan addımlarda, görülən işlərdə gənclərin fəallığı, canfəşanlığı xüsusilə seçildi, təqdir edildi. Gənclər üçün əldə olunan nailiyyətlərin zirvəsində isə, şübhəsiz, Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi dayandı. Əlamətdar hadisədən daha da ruhlanan naxçıvanlı gənclər il ərzində istər sosial şəbəkələrdə, istərsə də yerli və beynəlxalq tədbirlərdə, müsabiqələrdə təqdirəlayiq şəkildə iştirak etdilər, diyarımızın dünənindən bu gününə keçilən möhtəşəm yolun bütün incəlikləri onların səyi ilə dünyaya yüksək səviyyədə bəyan olundu. Təbii ki, aralarında öz uğurları ilə daha çox sayılıb-seçilən, mükafatlara layiq görülən gənclər də az deyil. Bu günlərdə onlardan bir neçəsi ilə görüşdük, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı, həmçinin Gənclər Paytaxtı olması ilə əlamətdar olan 2018-ci ilin gənclərin yaddaşında hansı izlər buraxdığını öyrənməyə çalışdıq:*

***Pnar Yusifli – Naxçıvan Müəllimlər İnstitutunun məzunu:*** – 2018-ci il bütün naxçıvanlı gənclər kimi, mənim də yaddaşıma hər zaman xoş xatirələrlə anacağım bir dövr kimi həkk olundu. Sözün açığı, ilin əvvəlindən bu günədək o qədər tədbirlərdə, müsabiqələrdə iştirak etmişəm ki, ilk olaraq hansından bəhs edəcəyimi bir anlıq unutdum. Əvvəlcə hər birimiz üçün ən mühüm hadisə sayılan doğma şəhərimizin ölkəmizin Gənclər Paytaxtı seçilməsindən başlayım. Belə ki, hələ müsabiqəyə start verilməzdən öncə sosial şəbəkələrdə Naxçıvanla bağlı çoxlu fotoşəkillər, slaydlar paylaşır, Bakıda, eləcə də xarici ölkələrdə yaşayan dostlarıma doğma diyarımın turizm potensialını aşılamağa çalışırdım. Azərbaycanın Gənclər Paytaxtının seçilməsi ilə bağlı müsabiqəyə start verilməsi xəbərini eşidən kimi dərhal ətrafımdakı tanışlarımla var-qüvvəmizi səfərbər etdik. Ne yerdə ulu babalarımızın gözəl kəlamı yadıma düşür: “El bir olsa, dağ oynadar yerindən, söz bir olsa, zərbi kərən sındırar”. Nəticədə, canımız qədər sevdiyimiz Naxçıvanımızı müsabiqənin qalibi etdik. Bununla da həyatımızda heç vaxt qürub etməyəcək yeni Günəş parladı, yolumuz daha işıqlı və rəvan oldu.



Onu da deyim ki, ilboyu muxtar respublikanın ali təhsil ocaqlarının tələbələri üçün özünüifadəetmə üsullarının təkmilləşdirilməsi, motivasiya, ünsiyyətqurma, hədəf və məqsədə çatma və digər mövzularda təlimlərin təşkilində fəal iştirak etdim. Həmçinin Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi çərçivəsində təşkil olunan “Xəmsə” milli intellektual oyununa və digər tədbirlərə qatıldım, diplom və hədiyyələrlə təltif olundum. Möhtəşəm tariximizi özündə yaşadan Möminə xatın türbəsinin əhatəsində həvəskar kimi kamera ilə çəkdiyim videoçarx isə həyatıma yeni çalarlar, xoşbəxt günlər gətirdi. Belə ki, onu sosial şəbəkələrdə paylaşmağım böyük marağa səbəb oldu və bununla mən həm də mötəbər tədbirlərdə iştirak etmək imkanı qazandım. Doğma şəhərimizdə təşkil olunan Naxçıvan Muxtar Respublikası Gənclərinin VIII Forumunda və Bakıda keçirilən Azərbaycan Gənclərinin VIII Forumunda iştirakımı həyatımın ən böyük uğurlarından biri kimi hər zaman xatırlayacağam. Bir sözlə, 2018-ci ildə həyatımın ən əlamətdar günlərini yaşadım, gələcəyə olan böyük ümidlərim özünü doğrultdu. Sonda muxtar respublikada biz gənclərə göstərilən diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm.

***Suat Muradov – Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi:*** – Atdığım bütün addımlarda dövlətimizin dəstəyi təhsil aldığım məktəbdə, cəmiyyət içində qarşılaşdığım insanlardan gördüyüm xoş, mehriban münasibət məni ürəkdən sevindirir. Yaradılan şərait məni dərslərimdə fəal olmağa, sağlamdüşüncəli, Vətənimə, xalqıma layiqli gənc kimi yetişməyə ruhlandırır. Bilik və bacarığımın inkişafı üçün məktəbdənkənar fəaliyyətlə də geniş şəkildə məşğul oluram. Artıq bir neçə ildir ki, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin tennis və aplikasiya dərnəklərində, eləcə də Naxçıvan Uşaq Bərpa Mərkəzində təşkil olunan oyun məşğələlərində iştirakım sayəsində uğurlarımın ardı-arası kəsilmir. Tədbirlərdə, müsabiqələrdə diplom və fəxri fərmanlarla təltif edilməyim məni daha da ruhlandırır, yeni qələbələrə səsləyir. 2018-ci il bütün gənclər kimi, mənim də həyatımda əlamətdar hadisələrlə yaddaqalan oldu. Ötən illərə nisbətən bu il daha çox nailiyyət əldə etdim. İl ərzində iştirak etdiyim tədbirlər arasında “Milli geyimlər” festivalını xüsusilə xatırlamalıyam. Həmin tədbirdə əl işlərim nümayiş olundu, insanların onlara maraqla tamaşa etmələri, ünvanıma xoş sözlər səsləmələri çox qürurverici idi. Bu il oktyabrın 30-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Ən güclü kimdir” devizi altında keçirilən stolüstü tennis yarışında ikinci yeri tutduğum üçün də çox sevinclıyəm. Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində təşkil olunan Beynəlxalq Əlillər Gününə həsr edilmiş sərgidə mənim də əl işlərim yer aldı, buna görə diploma təltif olundum. Artıq bir neçə gündən sonra 2018-ci il sona çatır. Əminəm ki, bu ilin həyatıma gətirdiyi yeni çalarlar bundan sonrakı yoluma da şəfəq saçacaq.



***Fuad Babayev – Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi:*** – Söhbətimə əsərlərini sevə-sevə mütaliə etdiyim görkəmli rus yazıçısı, dramaturq Nikolay Vasilyeviç Qoqolun “Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var” kəlamı ilə başlamaq istəyirəm. Bəli, bu gün biz gənclərin maraq dairələri nəzərə alınır, parlaq gələcəyimiz naminə lazımi imkanlar yaradılır, inkişafımız üçün qarşımızda geniş üfüqlər açılır. Yetər ki, bunun qədir-qiymətini bilib, cəmiyyətə, xalqa faydalı ola biləcək işlərlə özümüzü tanıtdıraq. Fikrimcə, yola salmaqda olduğumuz 2018-ci il biz gənclərin həyatında olduqca maraqlı, gələcəyimizə yönəlmiş işlərin həyata keçirilməsi ilə tarixə yazıldı. Gəncliyin uğur marafonu elə ilin əvvəlində Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə başladı. Sonra bir-birini əvəzləyən müxtəlifsəpkili tədbirlər həm öz bacarığımızı ortaya çıxarmağa, həm də qədim diyarı hərtərəfli tanıtmağa böyük fürsət yaratdı. İl ərzində bir sıra layihələrə qatıldım, təlimlərdə aparıcı qismində çıxış etdim.



2017-2018-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyətinin xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin müsabiqəsində birinci yer tutaraq sertifikat qazandım. Gənclər arasında təşkil olunan “Xəmsə” milli intellektual oyunu üzrə X Azərbaycan çempionatının muxtar respublika üzrə zona seçim mərhələsində iştirakçısı olduğum komanda ilə III yeri tutdum. Həmçinin “Azərbaycanın intellektual birincisi” layihəsinin III mövsümü çərçivəsində keçirilən “Axtar tap” intellektual oyununun qalibi oldum. Sentyabrın 21-23-də “Avropa günləri” çərçivəsində Naxçıvanqalada təşkil edilən, könüllü olaraq iştirak etdiyim tədbir xatirəmdə dərin izlər buraxdı. Eyni zamanda təhsil aldığım universitetdə tələbələrin iştirakı ilə “İntellektual rinq” adlı intellektual oyun keçirdim, hazırda davam edən “Kim? Nə? Hara?” oyununda aparıcı kimi iştirak edirəm. Naxçıvan Muxtar Respublikası Gənclərinin VIII Forumunda çıxışımı isə hələ də xatırlayıram. Ötən ay Bakıda keçirilən Azərbaycan Gənclərinin VIII Forumu da dünyagörüşümün artmasında böyük rol oynadı. Bir sözlə, 2018-ci il həyatıma yeniliklərlə dolu il kimi daxil oldu, düşüncəmdə müxtəlif fikir və ideyalar formalaşdı və inanıram ki, 2019-cu ildə həmin arzuları reallığa çevirə biləcəyəm.

***Lalə Rzayeva – Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi:*** – Görkəmli şəxsiyyətlər, mərd oğullar yetirən Naxçıvan diyarında dünyaya göz açdığım üçün özümü xoşbəxt sayıram. Şanlı tarixə malik qədim yurdumun bu gün hər qarış torpağı yaradıcı əllərin nəvazişi ilə gülüstana çevrilib və bu, bir gənc kimi məni ürəkdən sevindirir. Bütün bunları təbliğ etmək, dünyaya çatdırmaq isə biz gənclərin üzərinə düşən mənəvi borcdur. Şəxsən mən ötən illər ərzində ölkəmizin digər bölgələrində, eləcə də xarici ölkələrdə olanda Naxçıvanın inkişafını, turizm potensialını tanıtmağa çalışmışam. Elə sosial şəbəkələrdə də daim fəallıq göstərir, gəzdiyim-gördüyüm yerlərin foto və videolarını paylaşıram.



Bu il biz gənclərin ən böyük uğuru Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi oldu. Müsabiqəyə start veriləndən tələbə yoldaşlarımla birgə fəallıq göstərdik və nəticəsi də hər birimizi qəlbən sevindirdi. Beləliklə, həyatımızda qızıl hərflərlə yazılan yeni bir səhifə açıldı. İl ərzində bir sıra beynəlxalq tədbirlərdə, müsabiqələrdə iştirak etdim. Bu ilin aprel ayından start verilən “Mən muxtar respublikanın tanıdılması və inkişafı üçün nə etmişəm?” adlı inşa yazı müsabiqəsinin qalibi olmağım yaradıcı fəaliyyətimə böyük stimul verdi. Həmçinin sentyabrın 21-23-də“Avropa günləri” çərçivəsində Naxçıvanqalada təşkil olunan tədbir də olduqca maraqlı və yaddaqalan keçdi, burada Almaniya səfirliyi üçün könüllü oldum. Bu, mənim üçün böyük təcrübə idi.“Azərbaycanda Belarus gəncləri günləri” çərçivəsində Belarus Respublikasından bir qrup gəncin Naxçıvana gəlişi müddətində keçirilən tədbirlər mənim üçün böyük fürsət oldu. Xarici dil bildiyim üçün belaruslu gənclərlə sərbəst ünsiyyət qura bildim, onlara qədim diyarımız haqqında ətraflı məlumatlar verdim. Bəli, beləcə, 2018-ci il mənim də həyatıma mənalı günlər, xoşbəxt anlar gətirdi, silinməz izlər buraxdı.

*Gənclərlə söhbətlərimdən bir daha inandım ki, Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi, bununla bağlı təşkil olunan tədbirlər onların həyatında böyük əhəmiyyətə malik inkişafa yol açıb. Gənclər əmindirlər ki, bu il qazandıqları uğurlar onlara gələcək həyatlarında, iş fəaliyyətlərində çox güclü stimul olacaq.*

✍ **Nail ƏSGƏROV**

## Futzal birinciliyi başa çatıb



*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş futzal üzrə birinciliyə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə partiyanın gənc üzvləri mübarizə apardılar.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil edilən birincilikdə şəhər və rayonların, ümumilikdə, 8 komandası iştirak edib.

Olimpiya sistemi üzrə keçirilən birinciliyin final görüşündə “Şərur” və “Sədərək” komandaları üz-üzə gəlib. Daha maraqlı oyun sərgiləyən şərurlular meydanı 5:1 hesablı qələbə ilə tərk ediblər. Üçüncü yer uğrunda görüşdə isə “Naxçıvan” komandası kəngərlili həmkarlarından üstün olub – 5:3.

Sonda qalib komandalar diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar. Mükafatları gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev təqdim ediblər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Tibb Kollecinin tələbə və müəllim heyəti Türkiyədə təcrübə kursu keçib

*Naxçıvan Tibb Kollecinin müxtəlif ixtisaslar üzrə 12 nəfərdən ibarət tələbə və müəllim heyətinin Ankara şəhərində fəaliyyət göstərən Yıldırım Bəyazit Eyitim və Araşdırma Xəstəxanasında biraylıq təcrübə kursu başa çatıb. Keçirilən kurs ixtisaslı kadrların hazırlanması ilə yanaşı, elmi əlaqələrin genişləndirilməsinə də xidmət edib.*

Qazanılan elmi və praktik vərdişlər təcrübə keçən tələbələr üçün iş yerlərində çox əhəmiyyətli olacaqdır. Heyətdə təmsil olunan tələbələrdən 5 nəfəri tibb bacısının işi, 5 nəfər isə mamalıq ixtisasları üzrə təhsil alır. Təcrübə müddətində tibb bacıları araşdırma xəstəxanasının ortopedik və infeksion xəstəlikləri, mamalıq ixtisasından olan tələbələr isə Doğum və Yenidoğulmuşlar şöbələrində fəaliyyət göstəriblər. Tələbələr Daxili xəstəliklər və LOR şöbələrinin də işi ilə tanışlıq imkanı qazanıblar. Təcrübədə məqsəd tələbələrin xəstələrlə ünsiyyət yaratmaq, gündəlik həkim təyinatlarını yerinə yetirmək bacarıqlarına yiyələnmələri olub.

Tələbələr kurs müddətində araşdırma xəstəxanasının Daxili xəstəliklər və Cərrahiyyə, Təcili tibbi yardım üzrə bölmələrində, Yenidoğulmuşlar, Döş qəfəsi, Yoluxucu xəstəliklər şöbələrində plastik və qeysəriyyə əməliyyatlarını izləyib, doğuş palatalarında, genetik laboratoriyada iş prosesi ilə tanış olub, müasir tibbi avadanlıq və cihazların istifadə qaydalarını, yeni müayinəmüalicə üsullarını mənimsəyiblər. Onlar müxtəlif manipulyasiyaların həyata keçirilməsində, sarğıların qoyulmasında, digər tibbi proseslərdə iştirak edib, qarşılıqlı təcrübə mübadiləsi aparıblar.

Tələbələrdən Kifayət Pənahova, Turalə Əmirbəyli, Bəhruzə Hüseynova, Rahibə Məmmədova onların müasir nəzəri və təcrübi biliklərə yiyələnmələri üçün unikal şərait yaradanlara öz minnətdarlıqlarını bildiriblər.

Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələri bundan sonra da davam etdiriləcəkdir.

**Hüseyn ƏSGƏROV**

### İtmişdir

Ordubad rayonunun Vənənd kənd sakini Məmmədov Əsgər Miseyib oğlunun adına olan JN-323A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Qafarov Ramin Məmmədəli oğlunun adına olan 0200278762 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 931